iki sahil

# Bakı Ali Neft Məktəbində İsveçrə səfiri ilə görüş



Bakı Ali Neft Məktəbində (BANM) İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder ilə görüş keçirilib. Görüşdə rektor Elmar Qasımov, ABB şirkətinin ölkə üzrə direktoru Rüstəm Qasımov, İsveçrə səfirliyinin Mətbuat və informasiya üzrə əməkdaşı Ateş Sultanov və ali məktəbin digər məsul əməkdaşları iştirak ediblər.

Qonaqları salamlayan rektor Elmar Qasımov ali məktəbin tələbələri, təlim-tədris proqramları haqqında danışıb. Rektor vurğulayıb ki, BANM-in tələbələri hər yay 2 ay müddətində SOCAR-ın müəssisələrində və transmilli şirkətlərdə çalışaraq praktiki biliklər əldə edirlər. Ali məktəblə əməkdaşlıq edən şirkətlərdən bəhs edərkən Elmar Qasımov bu istiqamətdə ABB şirkətinin BANM-in ən yaxın tərəfdaşı və dostu olduğunu səfirə bildirib. Rektor ötən il BANM-də ABB şirkətinin avadanlıqları və simulyasiya vasitələri ilə tam təchiz olunan Təlim Mərkəzinin açılışı olduğunu bildirib və qeyd edib ki, hazırda bu Mərkəzin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasında təhsil alan tələbələrin praktiki fəaliyyətində rolu əvəzsizdir.

İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Filip Ştalder isə rektor Elmar Qasımova səmimi görüş və qonaqpərvərlik üçün təşəkkür edərək bildirib ki, BANM onun Azərbayncanda olduğu bir neçə universitetdən çox fərqlənir. Səfir qeyd edib ki, İsveçrəni Azərbaycanda təmsil edən ABB şirkəti sosial layihə olaraq özünün təhsil sahəsindəki ən böyük investisiyasını məhz BANM-ə qoymuşdur. Səfir Filip Ştalder, həmçinin yaxın günlərdə İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiyalar üzrə dövlət katibinin Azərbaycana səfər edəcəyini və BANM-ə da səfərinin gözlənildiyini deyib.

İsveçrənin ABB şirkətinin ölkə üzrə direktoru Rüstəm Qasımov BANM-lə əməkdaşlıqdan və şirkətin ali məktəbin yaxın dostuna çevrilməsindən çox məmnun olduğunu bildirib. Səfirə ABB şirkəti tərəfindən BANM-də quraşdırılan laboratoriyadan danışan Rüstəm Qasımov, şirkətin ali məktəblə əlaqələrinin daha da genişləndirmək niyyətində olduğunu bildirib.

Daha sonra tərəflər əməkdaşlıq üçün təkliflər irəli sürərək danışıqlar aparıblar. Görüşün sonunda qonaqlar ali məktəbi gəzərək buradakı müxtəlif şirkətlərin laboratoriyaları və təlim mərkəzləri ilə tanış olublar.

**Zamin Məmmədov,**
***"İki sahil"***